*K.Bağırova. Azər Buzovnalının epistolyar irsi (anadan olmasının 150 illiyi münasibətilə) // Əlyazmalar yanmır, 2020, № 1 (10), s.19-28.*

UOT: 82.0

**Könül Bağırova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş.,İstiqlaliyyət küç.26.*
*e-mail: bagirova.konul@yahoo.com*

# AZƏR BUZOVNALININ EPİSTOLYAR İRSİ (ANADAN OLMASININ 150 İLLİYİ MÜNASİBƏTİLƏ)

**Xülasə**

Yazılı irsi hələ də tam tədqiq olunmamış ədiblərimizdən biri XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış ustad şair, mütərcim, maarifçi, ictimai xadim Azər Buzovnalıdır. Əsərlərində xalqı tərəqqiyə, maarifə çağıran, vətənpərvərlik, türkçülük ideyalarını təbliğ edən, şeirlərini yüksək sənətkarlıqla qələmə alan şairin məktubları həmin dövrün ictimai-siyasi durumunu işıqlandırmaq, məşhur söz sənətkarları və həmmüasirləri ilə qarşılıqlı yaradıcı münasibətlərini təhlil etmək baxımından əhəmiyyətlidir. Azər Buzovnalının Əlyazmalar İnstitutunun xəzinəsində və şəxsi arxivində ümumilikdə iyirmi dörd məktub saxlanılır ki, onlardan yalnız altı ədədi şairin özünə məxsusdur. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində isə A. Buzovnalının dövrünün məşhur şairləri Səməd Mənsur, Əlipaşa Səbur, Əbdülxalıq Yusif, Əliabbas Müznib, Salman Mümtaz və digərləri ilə müntəzəm, qarşılıqlı məktublaşmaları da qorunmaqdadır. Məqalədə üsyankar duyğuların, şikayətlərin dilə gətirildiyi mənzum məktublaşmaların təhlili zamanı məlum olur ki, təqib və təzyiqlərə düçar olan dövrün mütərəqqi fikirli ziyalıları ilə əlaqəsinə görə Məşədi Azərə də 30-cu illərin repressiya dalğası toxunmuş, o cismani olmasa da, maddi və mənəvi cəhətdən çətin, çıxılmaz bir duruma düşmüşdü.

Azər Buzovnalının məktubları onun müasirləri ilə yaradıcılıq əlaqələrinin təyin edilməsinə, həmçinin dövrünün bir sıra ictimai-siyasi proseslərinin gedişatındakı mövqeyinin açıqlanmasına yardım edən örnəklərdir.

***Açar sözlər:*** *Əlyazma, məktub, arxiv, əsər, şair.*

**Giriş**

*Ədəbiyyatın bir qolu olan ədəbi epistolyar irs müxtəlif dövrlərdə, fərqli durumlarda və siyasi-ictimai şəraitlərdə yaşamış yazıçı və şairlərin həyatını, müasirlərinə münasibətini, ümumilikdə dövrün iqtisadi, ictimai, siyasi durumunu açıqlamaqda tədqiqatçılara yardımçı olmuşdur. Araşdırmalar göstərir ki, dünya ədəbiyyatının görkəmli mütəfəkkirləri yaradıcılıqlarında şeir, hekayə, romanla birlikdə, məktub janrına da müraciət etmiş, bu janra aid nümunələr onların yaradıcı kredosunda mütəmadi olaraq yer almışdır. Qərbi Avropa və rus ədəbiyyatında yüzlərlə məşhurun məktubları söylənilən fikirləri bir daha təsdiq edir. Azərbaycan ədəbiyyatı tarixində də yazıçı və şairlərin zəngin bədii irsləri kimi, onların münşəat yaradıcılıqları da diqqət mərkəzində olmuşdur. Müxtəlif ictimai zümrəyə və mövqeyə mənsub ziyalıların məktublarında həm dövrün bir sıra məsələlərini, həm də ədəbi mühiti əhatə edən qiymətli faktlara,*

*mənbələrə təsadüf olunmuş, müəyyən qaranlıq məqamlar məhz bu sənədlər vasitəsilə açıqlanmışdır.*

*Ədəbiyyatşünas alimlər müəyyən bir dövrün canlı əksi olan epistolyar irsin ədəbiyyatımızın bəzi mühüm və ziddiyyətli məsələlərinin həllində, qaranlıq tərəflərinin, açılmayan səhifələrinin işıqlandırılmasında mühüm rol oynadığını, dahi şəxsiyyətlərin nəzəri-estetik dünyagörüşlərinin təhlilində, eləcə də tarixi faktların müəyyənləşdirilməsində əsas amillərdən olduğunu qeyd etmişlər. Əlbəttə ki, şair və yazıçılarımızın mənəviyyatını əqli idrakını əhatə edən sənət nümunələri ilə yanaşı, onların həyat tərzini, yaşam şəklini, fəaliyyətini eyni zamanda tərcümeyi-halları, epistolyar irsi, daxili dünyalarına varan xatirələri də təyin edir.*

*Bu günə qədər epistolyar irsi tədqiqatdan kənar qalmış Azər Buzovnalının mənzum məktubları yaşadığı dövrün mənzərəsinin əksi kimi əhəmiyyətli və dəyərlidir.*

XX əsrin əvvəllərində ədəbi və ictimai fikir tariximizdə şair, publisist, naşir, ədəbiyyatşünas-alim, dilçi, tarixçi və tərcüməçi kimi tanınan Əliabbas Müznib ilə Azər Buzovnalının dostluq və yaradıcılıq əlaqələri hər iki şairin yaradıcılığında aydın hiss olunur. Məfkurə və məslək yaxınlığı onları ədəbi və ictimai fəaliyyətlərində birgə addımlamağa sövq etmişdir. Ə.Müznibin və A.Buzovnalının hər birinin arxivində qarşılıqlı məktublaşmalara dair materiallar yetərincədir. Bu mütərəqqi fikirli şairlərin mənzum yazışmaları, bir-birilərinə ithafən yazdıqları qəzəlləri onların eyni hədəf uğrunda mübarizələrinin təcəssümüdür.

Azərin xəstə olmağı əlhəq,
Qoymayıb dildə tab, canda rəməq.

Məclisi-zövqə pəhləvan, Azər,
Kişvəri-nəzmə hökmran, Azər [1].

22 fevral 1933-cü ildə qələmə alınan bu məktub Müznibin arxivində mühafizə olunan sənədlər arasında “İkinci məktub” adı altında saxlanılır. Azər Buzovnalı ilə birgə dövrün bir sıra məşhir ziyalı və ədiblərinin o cümlədən, Seyid Zərgər, Cənnəti, Mirzə Əbdülxalıq Yusif, Məhəmməd Hadi, Mirzə Rəhim Fəna, Müniri və sairələrinin adı çəkilən eləcə də “Dirilik”, “Babayi-Əmir”, “İqbal” kimi dövrün mətbu orqanlarının fəaliyyətini əks etdirən sənəd həmin dövrün mənzərəsinin əksi baxımından əhəmiyyətlidir.

Əliabbas Müznibin arxivində Azər Buzovnalının ona yazdığı “Müznib əfəndiyə” adlı şeirin avtoqrafı saxlanılır:

Qəmi-hicrin könül qanın töküb gözdən hədər qıldı,
Təmənnayi-vüsalın gör bana, ey könül, nələr qıldı [2].

1922-ci ilin 5 yanvarında Buzovnada qələmə alınan “Qıldı” rədifli bu qəzəldə Azər dostu Müznibə qəmli əhvali-ruhiyyəsini, pərişan ovqatını bədii dil ilə çatdırır. Şair qəzəlin sonunda qələm dostuna xitab edərək yazır ki, məqsədi Müznibin əhvalını təlx etmək deyil, sadəcə, öz bəxtini, kədərli taleyini qəlbinə yaxın insana izhar etməkdir:

Hüzuri-Müznibə bu qəzəldən Azərin qəsdi,
Məhəbbət zahir etməkdir, nə izhari-hünər qıldı.

Qəzəl “Məşədi Azər. Seçilmiş əsərləri” kitabında çap olunmuşdur [3].

Şairin epistolyar irsinin tədqiqi zamanı bir daha aydın olur ki, Azər Buzovnalı yaradıcılığı dövrün bir sıra nüfuzlu qələm sahiblərinin əksəriyyətinin diqqət mərkəzində olmuşdur. Rəhimağa Azərsoylunun da qeyd etdiyi kimi, Ə. B. Hüseynzadə, M. Rəsulzadə, H. Cavid, S.

Hüseyn, A. Şaiq, S. Mümtaz, H. Ərəblinski, H. Sarabski, H. Abbasov, S. Ruhulla kimi böyük şair, yazıçı və sənətkarlarımızın Azər Buzovnalıya böyük hörməti olmuşdur [3, s.269].

Azər Buzovnalının qələm dostu Səməd Mənsurla məktublaşmaları bu qəbildən olan örnəklərdəndir. XX əsrin əvvəllərində bütün Türk dünyasında, o cümlədən, Azərbaycanda geniş yayılan türkçülük ideologiyası, milli-azadlıq hərəkatı və cümhuriyyətçilik sevdası ilə yaşayan, 1918-ci ildə milli cümhuriyyətin qurulmasında rolu olan hər bir ziyalı, vətənpərvər şəxs kimi Səməd Mənsur da cəmiyyətdə baş verən "yeniliklərə", imperialist siyasətə və özbaşınalıqlara qarşı öz üsyanını şeirləri ilə dilə gətirirdi. Onun 1926-cı ilin fevralında qələmə aldığı mənzum məktubunun cavabını Azər Buzovnalı Novruz bayramında – 19 martda "Qələm arkadaşım möhtərəm Səməd Mənsurə" [4] adı altında yazmışdır. Burada şair sətiraltı mənalarla yaşadıqları qarışıqlıqdan narazılığını ifadə edir, "Qurtuluş İrgənəkondan olub əcdadımıza", "Çəkmə qəm varsa əruqunda Oğuz xan qanı" [3, s.201] deyərək, ona təsəlli verir, bir gün keçmiş, gözəl günlərin qayıdacağına ümid bəslədiyini bildirir:

Getdi əldən, o keçən günləri salma yadə
Gələcəkdə yenə var sevməli günlər, Mənsur!

Qalxışan məhvimizə məhv olur axırda özü,
Etmə bu barədə qəm, olma mükəddər, Mənsur [4]

Bu məktublaşmanın köməyi ilə A. Buzovnalının şəxsiyyəti, cəmiyyətdə baş verən hadisələrə münasibəti ilə bağlı bəzi qaranlıq mətləbləri aydınlaşdırmaq mümkündür. A. Buzovnalı tərəfindən qələmə alınan bu məktub cəsarətli şairin vətəndaş səsi idi. Eyni zamanda bu sənəd Buzovnalının sadəcə məclis şairi olmadığını təsdiqləyir, onu epiqonçuluqda günahlandıran, zamandan və dövrün ictimai-siyasi durumundan bixəbərlikdə ittiham edən, baş verənlərə qarşı etinasız kimi adlandıran sovet dövrünün təqlidçi "ədəbi tənqidçiləri"nə ən tutarlı cavablardandır.

Şairin yaradıcılıq yollarının tez-tez kəsişdiyi, səmimi dostu Səməd Mənsurla ardıcıl və səmimi ünsiyyəti 21 fevral 1926-cı il tarixində qələmə alınmış mənzum məktubda daha aydın əks olunur. "Səməd Mənsurun mənə yazdığı məktub. Möhtərəm dostum və qələm arkadaşım Azər əfəndiyə" [4] başlıqlı sənəd 1996-cı ildə dərc olunmuş kitaba [3] daxil edilmiş, lakin əldə olunan əlyazma nüsxəsində üzə çıxan bəzi fərqlilikləri ilə yenidən nəşrə təqdim edilmişdir. "Getdi əldən o keçən sevimli günlər, Azər, Yakıyor şimdi qəmin könlümü azər, Azər" deyərək keçmiş günləri qəlb acısı ilə dilə gətirən S.Mənsurun bu mənzum məktubu qələm dostuna olan hisslərinin cəmləndiyi nümunə kimi dəyərlidir.

Azər Buzovnalının yazılı irsini, əlyazmalarını tədqiq etdikcə məlum olur ki, həmmüasirlərinin hər birinin yaradıcılığında onun varlığı, şəxsiyyəti yad olunmuşdur. Tədqiqatçı alim Ələkbərli Nazif qeyd edirdi ki, "Səməd Mənsurun dostlar dairəsi geniş olub. O, Bakı şairlərinin əksəriyyəti ilə dostluq edib. O, Əlabbas Müznib və Əmin Abid qardaşları, Haşım bəy Saqib, Məşədi Azər, Ağadadaş Müniri, Əbdülxalıq Yusif, Salman Mümtaz, Əliağa Vahid və başqaları ilə dostluq və yaradıcılıq əlaqələri saxlayırdı" [5].

Azər Buzovnalının "Məktubi-şikayətnamə Heydər Hüseynov yoldaşa" [4] başlıqlı məktubu vasitəsilə həm şairin tərcümeyi-halının bilinməyən tərəflərini öyrənmək, həm də sovet siyasi rejiminin əməkdar maarif işçisinə, qocaman şairə, müdrik el ağsaqqalına göstərdiyi "ehtiramın, qayğının" səviyyəsini görmək, tədqiq etmək mümkündür. Etinasızlıqdan, biganəlikdən usanan şairin şikayət dolu iniltiləri şeirə bədbin bir ruh hakim etmişdir:

Həris deyiləm çox sim ilə zərə,
Şərəfim alınsın ancaq nəzərə.

Qoca bir şairə deyildirmi ar,
Sovet ölkəsində olmaq böylə xar.

Əlbəttə ki, bu və bu ruhda yazılmış, üsyankar duyğuların, şikayətlərin dilə gətirildiyi başqa şeirlər göstərir ki, təqib və təzyiqlərə düçar olan dövrün mütərəqqi fikirli ziyalıları ilə əlaqəsinə görə Məşədi Azərə də 30-cu illərin repressiya dalğası toxunmuş, o cismani olmasa da, maddi və mənəvi cəhətdən çətin, çıxılmaz bir duruma düşmüşdü.

"Möhtərəm dostum və qələmdaşım Mirzə Hüseyn xanə" [4] adlı məktubda A.Buzovnalı bir çox şairlərin, sənət adamlarının adlarını sadalayaraq onlar haqqında bir beytlə də olsa məlumat verməyə çalışır. Sonda şair öz pərişan halından da bəhs etməyi unutmur:

Hələ çəksəm bəyanə Azərin gər suzeşi-qəlbin,
Düşər atəş hami dünyayə, nə tək Azəristanə.

Azər Buzovnalının Qarabağ ədəbi mühitinin yetirdiyi istedadlı şair, tərcüməçi, maarifçi ziyalı İbrahim Tahirlə sıx dostluq yaradıcılıq münasibətləri olmuşdur. "İbrahin Tahirin Bakuyə gəlmək müjdəsin arkadaşım Səburə yazdığımdır" [4] sərlövhəli əlyazmada hər iki şairin səmimi dostluq münasibətləri aydın şəkildə təzahür edir. Beş şubat (fevral- K.B.) 1924-cü ildə qələmə alınan mənzum məktubda Məşədi Azər İbrahim Tahirin Bakıya gəlməsi müjdəsini dostu Səbura çatdırır, bundan şad olduğunu ruh yüksəkliyi ilə ifadə edir:

Səburum, müjdələr olsun sənə Baku ziyaləndi,
Könüllər güzgüsündən gerdi-qəm getdi səfaləndi.

Əsas şeir möhkəm bir bəna üzrə binaləndi,
Qazıldı rişteyi-cəhlü cəhalət bir həvaləndi.

Buzovnanın məşhur İmaməliyevlər nəslindən olan Azər Buzovnalının əmisi oğlu Ağasəlim Fədai 1930-40-cı illərdə Abşeron ədəbi mühitində yetərincə tanınan gənc qələm sahiblərindən idi. Ağasəlim Fədai tərəfindən "Möhtərəm əmi oğlum Azər!" [6] adı ilə qələmə alınmış məktub vasitəsilə Azər Buzovnalının poeziyada yeni addımlayan qələm sahiblərinə dəstək olduğu fikri bir daha aydınlaşır. Gənc şair ustadı Azər Buzovnalıya Füzulinin qəzəlinə təxmis etdiyi "Baği-ümumidə çiçəkləndi al-əlvan süsənim, Açdı amalım ilə qırmızı güllər çəmənim" və Azər Buzovnalının "Fəqri-xoş qeyri-həqqə mültəmis olmaqdansa, Xan hər səfləyə, ey dil, məgəs olmaqdansa" beytli qəzəlinə yazdığı "Müqəddəmü mərdümü baqeyrətə payəndaz ol, Fərqi-ərbabi-təməllüqdə fəs olmaqdansa" təxmisini şairin ustadanə qələmi ilə təshih olunması üçün göndərmişdir. Rəhimağa Azərsoylu qeyd edir ki, "Məşədi Azərin "Fəqri-xoş qeyri-həqqə mültəmis olmaqdansa" mətləli qəzəlinə Ağasəlim Fədai bu təxmisini 1941-ci il mayın 23-də Bakı şəhərində bu sərlövhə ilə yazmışdır: "Əmim oğlu Məşədi Azərin qəzəlinə təxmis"(A. Fədainin şəxsi arxivindəndir; naşir) [3.s. 207].

Məktub bir daha şairin əsl sənətkar, lazım olduğu məqamda sözünü deyə bilən nüfuzlu qələm sahibi olduğu ilə birgə həmçinin müsbət insani keyfiyyətləri özündə birləşdirən, gənc qələm sahiblərinin yoluna ədəbi aləmdə işıq saçan bir şəxsiyyət kimi formalaşdığını sübut edir.

Saxlama vahidi 59 olan məktubun müəllifi naməlum kimi qeyd edilsə də, şeirlərin məqtə beytində Səbahinin adının çəkilməsi ilə sənədin ona aid olmasını ehtimal etmək olar:

Ey, Səbahi, söz zərafətdən çıxar,
Xətm qıldım mən kəlamı hər nə var

Məktub vasitəsilə aydın olur ki, Azər Buzovnalı Azərbaycan ədəbiyyatı tarixini Güney Azərbaycan və burada cərəyan edən ədəbi, tarixi hadisələrlə paralel olaraq təqib etmiş, Səbahi və bir çox qələm sahibləri ilə yazışaraq ədəbi mükalimələr qurmuş, proseslərə qarşılıqlı dəyər verməyi bacarmışdır. Sənədin davamında Səbahi Buzovnalının ona ünvanladığı mənzum cavab

məktubunu da öz dəsti-xəttilə qələmə almış və sənədin davamına köçürmüşdür. Bir sıra povest, hekayə və şeirlərin müəllifi olan Cənubi Azərbaycanın Mərənd bölgəsində anadan olub, ibtidai və ali təhsilini Şimali Azərbaycanda tamamlayan, XX əsr Azərbaycan yazıçısı Gəncəli Səbahi ilə Azər Buzovnalının dostluq və yaradıcılıq ünsiyyətinin nümunəsi kimi sənəd xüsusi dəyərə malikdir.

1910-1911-ci illərdə Bakıda Azərbaycan dilində nəşr edilən ədəbi, ictimai, siyasi, jurnal "Yeni Füyuzat"ın naşiri və məsul redaktoru Əlipaşa Hüseynzadə (Səbur) ilə də Azər Buzovnalının yaradıcı dostluq münasibətləri xüsusi maraq doğurur. Şairin həm şəxsi arxivindəki materiallar, həm də xəzinədən əldə edilən mənzum məktub nümunələri iki dövrdaşın yaradıcı əlaqələrinin təcəssümüdür. Azər Buzovnalının dövrünün tanınmış ziyalısı, mətbuat xadimi, şairi ilə olan münasibətləri Səburun 18 fevral 1933-cü ildə "Möhtərəm Azər əfəndiyə" [7] adı altında qələmə aldığı 7 beytlik məktubunda daha aydın görünür. Səbur dostu ilə ayrı keçən günlərini ürək ağrısı ilə dilə gətirir, qəmli əhval-ruhiyyəsini qarşı tərəfə duyurmaq istəyir:

Sükun edirmi sanırsan Səbur ki, sənsiz,
Əliala bəd üzü gülməz, fərağınla ağlar.

Hər iki şairin hicran acısı 26 fevral 1928-ci ildə yeddi beytlik "Əlipaşa Səburun mənə yazdığı mənzumə" də daha dərindən hiss olunur. Ə. Səbur mənzumənin məqtə beytində yazır:

Heyhat unutdunmu məni? Bən ki, unutmam,
Xatırlayıram mən səni hər bir nəfəsimdə.

Müntəzəm məktublaşan şairlərin bir-birilərinin yaradıcılıqlarına verdikləri dəyər, yaratdıqları sənət nümunələrinə qarşılıqlı rəğbət hissləri yazılan hər bir sətirdə aydın tərənnüm olunur. Səburun 14 mart 1928-ci ildə yeddi beytlik "Fəqət eşqinlə bəxtiyar" başlıqlı məktubu "Olsa mühəssənat kəlamində, ey Səbur, Azərdən iktisab eylədin hər nə səndə var" beyti ilə bitir. Şair burada təvazökarlıqla bütün uğur və müvəffəqiyyətlərini ustadının adı ilə bağlayır. Ə.Səbur məktublarının birində yazır:

Get, ey namə, hüzuri-xoşkəlamə,
Səlam et Azəri-aliməqamə [4].

Hər iki müəllifin "urarkən dəm" rədifli mənzum məktublaşmaları Azər Buzovnalının dəsti-xətti ilə Əlyazmalar İnstitutunun xəzinəsində mühafizə olunan qəzəlləri arasındadır. Ə.Səburun "Açılır əqdeyi-hikmət məqalindən urarkən dəm, Yox olur möhnətim daim vüsalindən urarkən dəm" mətləli məktubuna A. Buzovnalı "Tutuldu qönçə o saf məqalindən urarkən dəm, Qızardı gül xəcalətdən cəmalindən urarkən dəm" mətləli cavab məktubunu 15 mart 1928-ci ildə qələmə almışdır. Xəzinədəki 16 mart 1928-ci il tarixli son məktub "Yenə Əlipaşa Səburə cavab" [4] adlanır. Burada A. Buzovnalı Ə. Səburun mənzuməsini oxuduğunu şairanə ruhu ilə şərh edir:

Bəh-bəh yenə ədibi-hünərməndi-huşyar,
Almış əlinə kələbi-gəhərrizi-müşkbar.

Sonda fikirlərini "Azər qiraət eylədi mənzuməsin dedi, Əhsənət, ey ədibi-hünərməndi-huşyar" kəlmələri ilə tamamlayır. İki mütərəqqi fikirli ədibin müxtəlif mövzulu mənzum məktubları dövrün ədəbi-bədii mühitinin, ümumi mədəni mənzərənin canlandırılması baxımından dəyərlidir.

Şairə yazılan bəzi məktubların müəllifi naməlum kimi qeyd olunsa da, sənədlərin oxunuşu zamanı onları təyin etmək mümkün olmuşdur. Nümunə olaraq saxlama vahidi 60-da qeydiyyata alınan məktubun həm ümumi məzmununa, həm də birinci beytdə "Möhtərəm pedərim" deyə edilən müraciətə əsasən sənədin şairin övladlarından birinə aid olduğunu güman etmək olar.

Möhtərim pedərim gəldi məktubun,
Əhsən nə gözəldir tərzi-üslubun

Naməlum müəlliflər sırasından saxlama vahidi 61-də saxlanılan sənədin müəllifinin Ricayi olduğu aşkar edilmişdir. Şairə ünvanlanan şeirin məqtə beytində Ricayinin adının çəkilməsi sənədin ona məxsusluğunu göstərir. Müəllifin məktubun əvvəlində "Qardaşım Azər", "Məsləkdaşım Azər" kimi müraciət edib "Təxsiratımı təskinedici nəğmələrimlə sizi yad etmək şərəfinə nail olduğumu kəmali-iftixar ilə tələfi edərək kəndimi bəxtiyar hesab edirəm. Qardaşım!" söyləməsi hər iki şairin səmimi dostluq və yaradıcılıq münasibətlərinin göstəricisidir.

Azər Buzovnalının arxivində "Əliağaya Musa tərəfindən məktub" [8] adlı sənədin Musanın dilindən A. Buzovnalı tərəfindən yazıldığı ehtimal olunur. 18 beytdən ibarət mənzum məktubda şairin dəsti-xəttini sezməmək qeyri-mümkündür.

Azər Buzovnalı dövrünün ədəbi-bədii, mədəni mühitində həmişə hörmətlə yad edilən, ehtiramla xatırlanan qələm sahibi olmuşdur. Şair, ədəbiyyatşünas, publisist və dövrünün tanınmış ziyalısı olan Salman Mümtaz ilə də A.Buzovnalının səmimi dostluq əlaqələri olmuşdur. "Qələm arkadaşım möhtərəm Mümtaza" [4] adlı məktubda Buzovnalı Mümtazın xəstə olduğunu və bu səbəbdən narahatçılığını mənzum məktubunda təsvir edir:

Bəstəri olmuş eşitdim həzrəti-Mümtazımız,
Ey könül, rəftardən qalmış o sərvi-nazımız

Azər Buzovnalının "Məcməüş-şüəra"nın üzvlərindən olan Əbdülxalıq Yusiflə də əlaqələri olmuşdur. Çox yaxın dost olan hər iki şair Buzovnada müntəzəm keçirilən şeir məclislərində birgə iştirak etmiş və biri digərinə ithafən qəzəllər yazmışlar. Ə.Yusifin "Dildəki mənzuməni 1901-ci ildə avqust ayı Bakıdən mərhum Mirzə Əbdülxalıq Yusif təxəllüs yazmışdır" [4] adlı məktubunu öz xətti ilə köçürüb əsərləri arasına daxil edən A.Buzovnalı "Bunun cəvabında bənim də yazdığım dildəki mənzum sətrlərdir" başlıqlı 16 beytlik cavab məktubunu buraya əlavə etmişdir. Ə. Yusif ümumi əhvalını, ətraf dairəni 9 beytlik "Azər" rədifli qəzəli vasitəsilə qələm dostuna izhar edir:

Ey gülüstani-vəfa içrə güli-tər, Azər,
Asimani-hünərə mehri-münəvvər, Azər.

Azərbaycan milli mətbuatının yaranmasında və təşəkkülündə xüsusi xidmətləri olan şair, publilist, maarifçi ziyalılar nəslinin nümayəndəsi Mirzə Cəlal Yusifzadə ilə Azər Buzovnalının qarşılıqlı məktublaşmaları vardır. Qarabağ ədəbi mühitinin ziyalısı Mirzə Cəlalın adı yalnız məktublarda deyil, həm də A.Buzovnalının qəzəlləri arasında da çəkilir, ona xitab edilir. Şair omrünün son çağlarında, xəstəliklə sarsıldığı bir vaxtda qələmə aldığı məsnəvəsində yaxın qələm dostlarının adını sadalayır, dünyasını dəyişmiş müasirlərinin xatirəsini anır, qəmli əhvalını kədər hopmuş beytləri ilə təsvir edir. Avtobioqrafik əsər kimi qiymətli olan bu məsnəvidə Mirzə Səməndər, İbrahim Tahir, Salik, Seyid Zərgər, Rahil, Rağı, Cəfər Cabbarlı, Səməd Mənsur ilə bərabər Mirzə Cəlalın da adı qeyd olunur:

Hanı Tahir, nə oldu Mirzə Cəlal,
O iki şairi-fəsihməqal?! [3, s.11].

Bu şeir vasitəsilə Azər Buzovnalının müxtəlif ədəbi məclislərin nümayəndələri ilə, o cümlədən XIX əsrin II yarısında təxminən 1872-ci ildə Şuşada təşkil olunmuş "Məclisi-fəramuşan"ın üzvləri Mirzə Cəlal və İbrahim Tahirlə də sıx dostluq və yaradıcılıq ünsiyyətində olduğunu görürük. Azərin əlyazmaları arasında onun öz dəsti-xətti ilə yazdığı "Mirzə Cəlalın şeirləri" başlıqlı nümunələr də vardır. Həmçinin Azər Buzovnalının digər qələm dostlarına yazdığı məktublarda da Mirzə Cəlalın adına tez-tez təsadüf olunması iki şairin qarşılıqlı yaradıcı münasibətlərinin göstəricisidir. Məsələn, A. Buzovnalı Mirzə Hüseyn xana yazdığı məktubda "Cəlalı qalmayıb Mirzə Cəlalın sən gedən gündən, Dəxi nitqilə verməz zibi-zinət bəzmi-ürfanə" [4] beyti ilə müasirinin adını çəkərək, misralarına təəssüf hisslərini əlavə edir. Və yaxud Mirzə Ələkbərə yazdığı məktubunda Mirzə Cəlalın naşirlik, redaktorluq istedadını xüsusi vurğulayaraq yazır: "Yox isə etimadın gər Azərin sözünə, Təhqiq üçün rücu et Mirzə Cəlal pirə" [4].

Azər Buzovnalıya məktub yazan müəlliflər sırasında mollanəsrəddinçi şair, publisist, ictimai xadim Əli Razi Şəmçizadənin də adını çəkmək olar. 16 may 1927-ci ildə qələmə alınan məktub "Unudulmaz qardaşım, Azər" [9] sətirləri ilə başlayır. Müəllif həyatında olan dəyişikliklərdən xəbər verir, Gəncədə keçirilən ədəbi məclislərdə A.Buzovnalının adının mütəmadi yad olunmasını xüsusi fərəh hissi ilə çatdırır. Ə. Şəmçizadə çoxdan bəri görüşmədiklərini "Təəssüf ki, indiyə kibi Azərsizliyimi bilməmişəm" [9] ifadəsi və 8 beytlik məktubu ilə açıqlamağa çalışır. Məktubun sonunda Əli Nəzmi vasitəsilə Nemət Bəsirə məktub göndərdiyini, lakin cavab almadığını qeyd edir, A.Buzovnalıdan "Hər həyatın bir zamanı, hər zamanın bir saəti, Bir acı təsiri var, təsiri; bir fəryaddır!" mətləli 10 beytlik məktubu Nemət Bəsirə və "Nə zəmandan bəridir küçələr avarəsiyəm! Gəl yetiş! Mən qapının düşkünü, biçarəsiyəm!" mətləli 7 beytlik mənzum məktubu isə Əliağa Vahidə oxumağını təmənna edir.

Qeyd etmək lazımdır ki, bir neçə məktub nümunələrində Azər Buzovnalının dini baxışlarının bəzi ziddiyyətli məqamlarına rast gəlinir. İnamlı dindar olaraq İslam dininə qəlbən bağlı olan şair mənsub olduğu təriqətinə həmişə sadiq qalaraq, əsərlərinin əksəriyyətində müqəddəs kitabımıza, ulu Tanrıya bağlılığını tərənnüm etmişdir. Azər Buzovnalı "Fəthnamə", "Zəfərnamə" hissələrindən ibarət dini-tarixi mövzulu "Qəzavatnamə" əsərində İnsan-Kainat-Tanrı əlaqəsini söz sənəti vasitəsiylə açıqlanmış, kainat və bütün insanları Allahın Yer üzündə bir təcəllisi kimi xarakterizə etmişdir. Əsərin əlyazması Azər Buzovnalının arxivində saxlama vahidi 27-də altı dəftərdə mühafizə edilməkdədir. Həmçinin Azər Buzovnalının qəzəllərinin sırasında da şairin dini əqidəsini ehtiva edən sətirlərə tez-tez rast gəlinir. Şair belə əsərləri ilə xalqın cahil kütlələrini savadlı dini baxışları ilə tanış etməyə səy edir:

Sidqilə cümlə ürəkdən çağırıb Allahi,
Qədəmi-səy ilə tey eyləməli bu rahi [3, s.183].

Vaxtıdır kim, ayeyi-Qurานə iqrar eyləyək,
Bir-birin tərzi-xüvvətdən xəbərdar eyləyək [3, s.179].

Bununla belə Məşədi Azərin bəzi sənət nümunələrindəki ziddiyyətli dini baxışlarını onun yaşadığı dövrün, mühitin keşməkeşli məqamları ilə əlaqələndirmək olar. Şairin 1931-ci il may ayının 2-də "Arkadaşım Hüseyn Kəmalə" [4] başlıqlı geniş məzmunlu mənzum məktubunda bədbin şair ruhunu sezməmək mümkün deyil:

İntriqa gündən günə çoxalır,
İnsaniyyət öz-özünə yoxalır.
Müəllimlər satınalma quludur,
Məaşları sanki onun puludur.
Cürətimiz yoxdur həqq söz deməyə,
Çünki Allah yoxdur gəlsin köməyə [4].

Nümunələrdə aydın görünür ki, şair bəzən ətrafında cərəyan edən hərc-mərclikdən, haqsızlıqlardan usanaraq müqəddəs Tanrıdan kömək diləyir. Pedaqoji fəaliyyət göstərdiyi təhsil müəssisəsində özbaşnalığın baş alıb getdiyindən müfəssəl məlumat verən şair mənəvi sarsıntılarını saxlaya bilmir. Belə məqamlarda qocaman şair bəzən bədbinliyin psixoloji köklərinə, ümidsizliyə qapanaraq sanki üsyan qaldırmağa çalışır.

Azər Buzovnalının şəxsi arxivində mühafizə olunan məktubların bir neçəsi Əmin Abidə məxsusdur. XX əsr Azərbaycan ədəbi-ictimai həyatının fəal nümayəndəsi, milli-ideoloji düşüncə sahibi, cümhuriyyət dövrünün azadlıqsevər şairi, Stalin repressiyasının qurbanlarından olan Əmin Abidlə dövrünün elm və ictimai xadimləri, o cümlədən, ədəbiyyat aləmi üçün ustad sayılan Azər Buzovnalı arasında möhkəm, mənəvi bağlara söykənən əlaqələr mövcud idi. Əqidə və məfkurə dostluğuna əsaslanan bu münasibətlər onların yaradıcılığında öz əksini tapmışdır. Bu əlaqələrdən doğan səmimi hisslərin təcəssümü onların bir-birinə ünvanladıqları məktublarda açıq-aydın görünür. Əmin Abid 1928-ci ildə Azər Buzovnalıya ünvanlandığı iki məktubunda qocaman şairin əhvalını soruşur, onun və ailəsinin bayramını təbrik edir, ziyarətinə gəlmək istədiyini yazır. Sənədlər iki saxlama vahidi altında qruplaşdırılmışdır. Hər iki ədib arasında olan səmimiyyət və yaradıcı əlaqələrin təzahürü həcmcə kiçik, mənaca dərin olan məktubdan aydın hiss olunur. Əmin Abidin ustadı Məşədi Azərə göstərdiyi hörmət ədibin vətənpərvər, mütərqqi fikirli ziyalılar arasındakı nüfuzunun ən böyük göstəricilərindən biridir. Yolundan dönməz milli mücadiləçi, vətəninin azadlığını sevən bir aşiq olan Əmin Abidin Azər Buzovnalıya sevgi və rəğbət bəsləməsi təsadüfi deyil, Azərin də əqidə yoldaşı kimi onlarla eyni sıralarda külüng vurduğunun isbatıdır.

**Nəticə**

*Müasirlərinin Azər Buzovnalı yaradıcılığına verdiyi yüksək dəyər, ehtiram onun poetik irsinin mükəmməlliyinin, bir şəxsiyyət olaraq kamilliyinin göstəricisidir. Məlumdur ki, yaradıcı şəxsiyyətin ədəbi irsini, fəaliyyətini qiymətləndirmək, onun şəxsiyyəti haqqında müəyyən fikir yürütmək. dövrdaşları ilə yaradıcı və dostluq münasibətlərini öyrənmək, eləcə də yaşadığı dövrün tarixi-ictimai, mədəni şərtləri haqqında məlumat əldə etmək üçün onun epistolyar irsini də tədqiq etmək zəruridir. Araşdırmamız bir daha sübut edir ki, münşəat ədəbiyyatı zaman axarında öz əhəmiyyətini və aktuallığını itirmir, əksinə elmi istinad mənbəyi kimi öz dəyərini günügündən artırır. Azər Buzovnalının məktubları da bir sıra ictimai-siyasi proseslərin qiyməlləndirilməsinə və açıqlanmasına yardım edən belə sənədlərdir.*

**Ədəbiyyat siyahısı:**


1. Müznib Ə. Məktub. AMEA ƏYİ, f. 23, s.v. 326.
2. Müznib Ə. Məktub. AMEA ƏYİ, f. 23, s.v. 77.
3. Məşədi Azər. Seçilmiş əsərləri. Tərtibçi: R. Azərsoylu-İmaməliyev. Bakı: Boz oğuz-Nicat, 1996, 279 s.
4. Buzovnalı A. Əsərləri. AMEA ƏYİ, B-1217/2840.
5. Ələkbərli N.Ə. Bir ömrün rəngləri. Bakı: Elm, 2000, 80 s.
6. Buzovnalı A. Məktub. AMEA ƏYİ, f.12, s.v. 56.
7. Buzovnalı A. Məktub. AMEA ƏYİ, f. 12, s.v. 55.
8. Buzovnalı A. Məktub. AMEA ƏYİ, f. 12, s.v. 43.
9. Buzovnalı A. Məktub. AMEA ƏYİ, f. 12, s.v. 57.

**Кенуль Багирова**

**Эпистолярное наследие Азера Бузовналы**

Эпистолярное наследие является одним из разделов литературы. Оно помогает исследователям правильному восприятию и понятию жизнь и среду писателей и поэтов, живших в периоды истории, при разных политических конъюктурах и политически-социальных обстоятельствах. И их отношение к современникам, а также экономическую, социальную и политическую ситуацию в целом. Азер Бузовналы, один из отечественных мастеров слова, письменное наследие которого еще не полностью изучено. Прекрасный поэт, переводчик и просветитель, общественный деятель жил в конце XIX и начале XX веков. Поэт в своих произведениях и стихах, написанных большим мастерством, призывал свой народ к постоянному прогрессу и просвещению, пропагандировал идеи патриотизма и тюркизма. Исследование писем поэта важны с точки зрения освещения общественно-политической ситуации того времени и анализа его творческих отношений с известными мастерами слова и современниками. Помимо сокровищницы Института Рукописей, в его личном архиве хранится в общей сложности двадцать четыре письма, из которых только шесть принадлежат самому поэту. Кроме этого, в сокровищнице Института рукописей имени Мухаммеда Физули хранятся постоянная и взаимная переписка с такими известными поэтами того времени, как Самед Мансур, Алипаша Сабур, Абдулхалиг Юсиф, Алиаббас Мюзниб, Салман Мумтаз и другие. После рассмотрения поэтических писем, выражающих мятежные чувства и роптание, стало очевидно, что Мешади Азери также пострадал от репрессий 1930-х годов. Из-за общения с прогрессивными представителями интеллигенции, преследуемыми и притесняемыми правящим режимом, он тоже столкнулся материальными и моральными трудностями, попал в безвыходную и сложную ситуацию. Письма Азера Бузовналы, как часть, а также образцы его творчества, способствуют установить его творческие связи с современниками, а также раскрыть его позицию по ряду общественно-политических процессов своего времени.

***Ключевые слова:*** *Рукопись, письмо, архив, произведение, поэт.*

**Konul Baghirova**

**Azer Buzovnali’s epistolary heritage**

Being one of the branches of the literature, the literary epistolary heritage has always helped researchers to reveal the lives of the writers and poets living in different periods, different political-social situations, the attitudes of these authors to their contemporaries, generally, the economical, social and political conditions of the defined period. One of the Azerbaijani authors whose writing heritage has not been completely researched yet, is Azer Buzovnali, a virtuoso poet, translator, enlightener and a social man lived during the ends of the 19th and the beginnings of the 20th centuries. In his masterly works the poet was always challenging the people for advancement, popularizing the conceptions of patriotism and turkism. The letters written by him are very significant from the point of view of elucidating the social-political situation of that period and analyzing the poet’s mutual creative relations with his contemporaries, famous poets.

Besides Azer Buzovnali’s rich literary heritage preserved in the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS, his personal archives contain generally twenty four letters; only six of them belong to the poet himself. In the treasure of the Institute of Manuscripts are kept Azer Buzovnali’s regular correspondences with the well-known poets of his period such as Samad Mansur, Alipasha Sabur, Abdulkhaliq Yusif, Aliabbas Muznib, Salman Mumtaz and others.

Analyzing in this article his poetical correspondences where the poet expressed his rebel emotions, complaints, we reveal that for the relationship with his progressive-minded contemporaries confronted with pursuits and onrushes, Azer Buzovnali was also financially and emotionally offended by the waves of the political repression of the 30th years.

Azer Buzovnali's letters are the auxiliary samples in defining his creative relations with the contemporaries and revealing his attitude in some social-political processes of that period.

***Key words:*** *manuscript,letter, archives, work, poet.*

Redaksiyaya daxilolma tarixi: 08.06.2020
Çapa qəbul olunma tarixi: 18.06.2020

Filologiya üzrə elmlər doktoru
**Nailə Səmədova** tərəfindən çapa tövsiyə olunmuşdur.